Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Xankəndiyə qanunsuz silah daşınmaları nəzarətə götürülür - Böyük Qayıdışın təhlükəsizliyinə böyük zəmanət...

**İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"**

**İki ildən artıqdır ki, Azərbaycan xalqı, eləcə də, dünya azərbaycanlıları Ermənistan üzərindəki tarixi qələbəmizin sevinci ilə yaşayır. Dünyanın super gücə malik dövlətlərinin, o cümlədən nüfuzlu beynəlxalq təşkilatların 30 il ərzində nizamlaya bilmədikləri münaqişəni Azərbaycan 44 gün ərzində həll etdi.**



Bütün bunlar bir daha ondan xəbər verir ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında vasitəçilik missiyasını üzərinə götürən ATƏT-in Minsk qrupu fəaliyyətinin 30 ili ərzində məsələnin həllinə yox, dondurulmasına çalışıb və bununla da illər ərzində aparılan danışıqlar nəticə verməyib. Həm işğalçıya, həm də işğala məruz qalmış tərəfə eyni münasibət bəslənilib və digər beynəlxalq təşkilatların da bu istiqamətdə qəbul etdikləri qətnamələr icra olunmayıb.

Məsuliyyətli ölkə olaraq Azərbaycan daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirib və münaqişənin danışıqlar vasitəsilə həllinə çalışıb. Mötəbər beynəlxalq təşkilatlar, o cümlədən BMT Təhlükəsizlik Şurası da işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirib, hər dəfə tərəfləri sülhə çağıran bəyanatlarla kifayətlənib. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il icra olunmayıb.

**"Böyük Qayıdış"ın uğurla həyata keçirilməsi Azərbaycan xalqı üçün qürur, fəxarətdir**

Məlum olduğu kimi, işğaldan azad edilmiş ərazilərə böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunub. Bu Milli Prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir.

27 sentyabr - 10 noyabr 2020-ci il tarixlərində 44 gün davam edən müharibədə torpaqlarını Ermənistanın işğalından azad edən Azərbaycanda "Böyük Qayıdış" istiqamətində həyata keçirilən tədbirlər, köçkünlərin öz ata-baba yurdlarına qaytarılması prosesi Prezident İlham Əliyevin göstərişi və nəzarəti ilə həyata keçirilir. İşə ilk növbədə Ermənistan silahlı qüvvələrinin işğal dövründə yerləşdirdiyi minaları təmizləməklə başlayan Azərbaycan rəhbərliyi eyni zamanda bölgənin ilk infrastruktur layihələrinə də start verib.

İlk köç Zəngilan rayonunun Ağalı kəndinə aparılıb. Görülən işlər, aparılan islahatlar onu deməyə əsas verir ki, işğaldan azad olunmuş bütün ərazilərimiz ən qısa zamanda, ən yüksək keyfiyyət və həyat standartları çərçivəsində yenidən qurulacaq və Qarabağ bölgəsinin əvvəlki şöhrəti özünə qayıdacaq. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə "Böyük Qayıdış" ın uğurla həyata keçirilməsi Azərbaycan xalqı üçün qürur, fəxarət, eyni zamanda "Qarabağ Azərbaycandır!" həqiqətinin dünyaya bir daha möhtəşəm bəyanı oldu.

**Dövlət başçısı bildirib ki, Azərbaycan öz məqsədlərinə çatacaq və bu işdə ona heç kim mane ola bilməz**

Ancaq görünən budur ki, Qarabağda qalan bəzi separatçı erməni töküntüləri bu prosesə mane olmaq istəyir. Ermənistan gizli yollarla Qarabağa silah göndərir. Bir neçə gün əvvəl Azərbaycan bir güllə belə atmadan Qarabağla Ermənistanı birləşdirən bütün gizli yolları nəzarətə götürdü. Sözügedən əməliyyat Azərbaycan ordusu tərəfindən yüksək peşəkarlıqla həyata keçirilib. Uğurlu əməliyyat nəticəsində bir neçə yaşayış məntəqəsi, strateji yollar nəzarətə götürülüb. Hətta erməni mediası belə bu gün açıqlanan əməliyyatın Azərbaycan Ordusu tərəfindən yüksək peşəkarlıqla reallaşdırıldığını etiraf edir. Əməliyyatdan sonra Xankəndi-Laçın yoluna nəzarət imkanları genişlənib. Bu yol boyunca bütün ərazilər artıq Azərbaycan ordusunun qəti nəzarəti altındadır.

Azərbaycan Prezidenti İlham Əliyevin Laçına səfəri zamanı, eləcə də bugünlərdə Laçın üzrə xüsusi nümayəndəni qəbul edərkən söylədiyi fikirlər reallaşmaqdadır. Dövlət başçısı bildirib ki, Azərbaycan öz məqsədlərinə çatacaq və bu işdə ona heç kim mane ola bilməz. Azərbaycan torpaqlarına gizli silah daşınması və digər qeyri-qanuni fəaliyyətlərə son qoyulacaq. Bu son əməliyyatla faktiki olaraq Prezidentin fikirləri öz təsdiqini tapmış oldu.

**Bununla biz həm də Qarabağa "Böyük Qayıdış"ı təmin etmiş olacağıq"**

Hərbi-siyasi ekspert Emin Həsənli "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan ordusunun son əməliyyatının nöyük əhəmiyyəti var: "Əsaa odur ki, Ermənistan bundan sonra Qarabağa silah daşıya bilməyəcək. Separatçıların Qarabağda 10 mindən çox hərbçisi var. Bunlar Ermənistan ordusuna aid şəxsi heyətdir. Onlar rotasiya qaydasında dəyişirlər. Bu silahlıların təminatını torpaq yollardan keçməklə həll edirdilər. Ordumuz Laçın yolunun şimalındakı torpaq yollardan qanunsuz fəaliyyətlər üçün istifadənin, eləcə də Ermənistan tərəfindən silah-sursat daşımaqla vəziyyətin gərginləşməsinin və potensial təxribatların törədilməsinin qarşısının alınması məqsədilə lokal zəruri nəzarət tədbirləri həyata keçirib.

Ordumuz Şuşadan enərək şimalda Kosalar, şərqdə Turşsuya qədər bütün alternativ yolları azad edərək, nəzarətə götürüb.

Əməliyyatlarda itki olmayıb. Torpaq yollar Ordumuz tərəfindən tam nəzarətə götürülüb. Heç bir qan tökülməyib. Proses azsaylı qüvvə tərəfindən həyata keçirilib. Düşmən qazdığı səngərləri və açdığı yolları bir güllə də atmağa cəsarət etmədən tərk edib.

Sonuncu əməliyyatın əhəmiyyəti ondan ibarətdir ki, Ermənistan və onun havadarları bölgədə Azərbaycan hərbi qüvvələrinin tam nəzarəti ələ keçirdiyini aydın görür. İtki vermədən belə strateji yüksəkliklər azad edilir. İkincisi, Azərbaycan Ordusu müasir texnikadan istifadə edərək, həm bölgəni bütünlükdə nəzarətdə saxlayır, həm də lazım olan strateji yüksəklikləri azad edir və Ermənistanın həmin yollardan istifadə edərək Qarabağa qanunsuz silah daşımasının qarşısını alır. Bu, Ermənistana bir mesajdır. 2020-ci ilin noyabrına qədər olan əməliyyatların əhəmiyyəti onda idi ki, Azərbaycan torpaqları azad edilmişdi. Ermənistan dünya güclərinə arxalanaraq elə bilirdi ki, Azərbaycan bu əməliyyatları keçirməyəcək. 2020-ci il noyabrın 10-dan sonra isə, Rusiya sülhməramlılarına arxayın olaraq, orda cinayət əməllərini davam etdirmiş, Qarabağa silah-sürsat daşımış, separatçıların Qarabağda dırnaqarası fəaliyyətlərini genişləndirməyə çalışmışlar.

Bu son olanlar onu sübut edir ki, Azərbaycan dövləti öz milli maraqlarından geri çəkilməyəcək, qısa müddətdə bütün bölgəni nəzarətə götürəcək və bu istiqamətdə zəruri tədbirləri yerinə yetirəcək. Ermənistanın bir yolu var: sülh müqaviləsini imzalayıb, öhdəliklərini yerinə yetirib, Zəngəzur dəhlizini açmalı və Qarabağdan qoşunlarını çıxarmalıdır. Əks halda Azərbaycan bunu özü həyata keçirəcək. Necə ki, BMT - nin qətnamələrini Azərbaycan dövləti, Ordusu yerinə yetirdi, 10 noyabr bəyanatının şərtlərini də yerinə yetirmək gücündədir. Bununla biz həm də Qarabağa "Böyük Qayıdış"ı təmin etmiş olacayıq".

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**